**Mingəçevir Dövlət Universitetinin**
**Pedaqogika və Psixologiya Kafedrasının nəzdində**
**İnklüziv təhsil Mərkəzinin**

# Ə S A S N A M Ə S İ

**Mingəçevir şəhəri-2025**

## 1.Ümumi müddəalar

**1.1**. Mingəçevir Dövlət Universitetinin Pedaqogika və Psixologiya Kafedrasının nəzdində İnklüziv təhsil Mərkəzi (bundan sonra – Mərkəz) MDU-da təhsil alan sağlamlıq imkanları məhdud olan və xüsusi təhsil ehtiyacı olan tələbələrin təhsildə və sosial həyatlarında uğurlu iştirakını təmin edən, tələbələrin fərdi xüsusiyyətlərinə uyğun təlim və dəstək xidmətləri təqdim edən, onların akademik və sosial inkişafını dəstəkləyən ictimai əsaslarla fəaliyyət göstərən struktur qurumudur.

**1.2**. Mərkəz öz fəaliyyətində Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktları, Azərbaycan Respublikası Konstitusiyasını, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin aktları, MDU-nun Nizamnaməsi, həmçinin MDU-nun rəhbərliyinin qərar və göstərişlərini, habelə bu Əsasnaməni rəhbər tutur.

**1.3**. Mərkəz öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən MDU-nun strukturuna daxil olan qurumlarla, həmçinin dövlət, yerli özünü idarəetmə orqanları, hüquqi və fiziki şəxslərlə, həmçinin qeyri-siyasi və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

## 2.Mərkəzin fəaliyyət istiqamətləri:

**2.1**. Mərkəzin əsas fəaliyyət istiqamətləri aşağıdakılardır:

**2.1.1**. İnklyüziv təhsil ilə bağlı mütəmadi təlimlər, seminarlar və işgüzar görüşlər təşkil etmək,

**2.2.2.** Sağlamlıq imkanları məhdud olan tələbələrə fərdi təhsil planları hazırlamaq, tədris metodlarını onlara uyğunlaşdırmaq və psixoloji dəstək xidmətləri təqdim etmək.

**2.2.3**. İnklyüziv təhsil prinsipləri əsasında dərsliklər, tədris materialları və digər resursların hazırlanmaq.

**2.2.4**. Sosial tədbirlər, mədəni fəaliyyətlər və integrasiya fəaliyyətləri təşkil etmək, tələbələrin sosial bacarıqlarını inkişafına dəstək olmaq.

**2.2.5**. İnklyüziya sahəsində yeni metodların inkişafı və elmi araşdırmaların təşviq etmək.

**2.2.6**. Yaradıcılıq qabiliyyəti təhsilalanları, gəncləri milli vətənpərvərlik, tarixə və mədəniyyətə hörmət ruhunda tərbiyə etmək,

**2.2.7**. Sağlamlıq imkanları məhdud olan tələbələrin yüksəkixtisaslı mütəxəssis kimi yetişməsi üçün tədris edilməyən zəruri biliklərə, həyati bacarıqlara yiyələnməsini təmin etmək.

## 3.Mərkəzin hüquqları:

**3.1**. Mərkəz öz vəzifələrini həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir

**3.1.1**. Öz fəaliyyət sahəsində müstəqil olaraq iş aparmaq və strateji planlar hazırlamaq,

**3.1.2**. İnklyüziv təhsili sahəsində tədqiqatlar aparmaq, yeni metodlar və yanaşmaları inkişaf etdirmək, habelə təhsil prosesinin təkmilləşdirilməsi üçün planlar hazırlamaq

**3.1.3**. Əlilliyi və xüsusi qayğıya ehtiyacı olan tələbələrə fərdi təhsil və psixoloji dəstək xidmətləri təqdim etmək,

**3.1.4.** Təhsil və sosial inteqrasiya prosesində tələbələrə yardım etmək, onların müxtəlif təhsil ehtiyaclarına uyğun proqramlar və xidmətlər hazırlamaq.

**3.1.5**. Universitetin tədris proqramlarını əlilliyi və xüsusi qayğıya ehtiyacı olan tələbələr üçün uyğunlaşdırmaq, inklüziv metodlarla tədris fəaliyyətlərini təşkil etmək hüququna malikdir.

**3.1.6.** Müəllimlərə inklyüziv təhsil haqqında təlimlər və seminarlar təşkil edərək onların peşəkar inkişafını dəstəkləmək

**3.1.7**. Universitetin tədris və sosial fəaliyyətləri üçün lazım olan resursları (avadanlıq, tədris materialları, kitabxana və s.) əldə etmək və istifadə etmək

**3.1.8**. Digər universitetlər, təhsil müəssisələri, dövlət və qeyri-dövlət təşkilatları ilə əməkdaşlıq etmək və birgə layihələr həyata keçirmək

**3.1.9.** Beynəlxalq təhsil təşkilatları ilə əlaqələr qurmaq və inklyüziv təhsil sahəsində mütəmadi mübadilə və əməkdaşlıq imkanlarını araşdırmaq,

**3.1.10**. İnklyüziv təhsilinin tətbiqi üçün metodik materiallar, dərsliklər, tədris planları və digər resurslar hazırlamaq və yaymaq,

**3.1.11**. Tələbələrə psixoloji dəstək vermək və onların sosial problemlərini həll etmək üçün psixoloq və digər mütəxəssisləri cəlb etmək,

**3.1.12**. Tələbələrin sosial, emosional və təhsil inkişafını izləyərək, onların qarşılaşdıqları maneələri aşmalarına kömək etmək.

## 4. Mərkəzin vəzifələri

**4.1.**Mərkəzin əsas vəzifələri aşağıdakılardan ibarətdir:

**4.1.1**. İnklyüziv təhsil modelinin tətbiqini təhlil etmək və inkişaf etdirmək.

**4.1.2**. İnklyüziya ilə bağlı təlimat və metodik materialların hazırlamaq,.

**4.1.3**. Tələbələrə fərdi dəstək xidmətləri göstərmək, onların təhsil müddətində qarşılaşdıqları çətinliklərin aradan qaldırılması üçün müxtəlif tədbirlər həyata keçirmək.

**4.1.4**. İnklyüziv təhsil sahəsində elmi araşdırmalar aparmaq və müvafiq tədris materiallarını inkişaf etdirmək.

**4.1.5**. Əlilliyi olan tələbələrin təhsil və sosial ehtiyaclarını qarşılamaq üçün universitetin digər struktur bölmələri ilə əməkdaşlıq etmək.

**4.1.6**. İnklyüziya sahəsində müəllimlərin peşəkar inkişafı üçün təlimlər və seminarlar təşkil etmək.

**4.1.7.** Tələbələrin sosial inteqrasiyasını dəstəkləyən fəaliyyətlər həyata keçirmək.

## 5. Mərkəzin fəaliyyətinin təşkili

**5.1**. Mərkəzin fəaliyyətinin təşkili MDU rektorunun əmri ilə təyin olunmuş rəhbər tərəfindən həyata keçirilir. Mərkəzin struturuna aşağıdakılar daxildir:

**5.1.1.** Mərkəzin rəhbəri mərkəzin ümumi fəaliyyətini idarə edir və strateji planlaşdırma aparır,

**5.1.2.** Mərkəz üzvləri Pedaqogika və Psixologiya kafedrasının müəllimləri, tələbələrə xüsusi təhsil dəstəyi verən psixoloqlar, pedaqoq və digər mütəxəssislər, xüsusilə inklyüziya sahəsində təcrübə qazanmış və ya təhsil alan şəxslərdir.

**5.1.3**. Mərkəzin fəaliyyətinə inklyüziv təhsilin tətbiqi və inkişafı ilə bağlı fikirləri təqdim edən, eyni zamanda mərkəzin fəaliyyətində aktiv iştirak edən tələbələr də cəlb oluna bilər.

## 6. Mərkəzin yaradılması və ləğv edilməsi

**6.1.** Mərkəz MDU-nun Elmi Şurasının qərarı və rektorun əmri əsasında yaradılır və ləğv edilir.

**6.2.**Mərkəzin ştat vahidlərinin sayı universitetin rektoru tərəfindən təsdiq edilir.